Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Bakı ətraf mühit üzrə böyük dünya tədbirinə ev sahibliyi edəcək...

## Ekologiya və ətraf mühitin mühafizəsi

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına müəyyən dəyişikliklər edilməli olduğunu vurğulayıb. Dövlət başçısı son vaxtlar bu istiqamətdə müəyyən işlərin görüldüyünü də diqqətə çatdırıb:**

Azərbaycanda ətraf mühitin mühafizəsi, təbii resursların-havanın, suyun, torpağın, flora və faunanın qorunması, çirklənmənin qarşısının alınması və ekoloji tarazlığın bərpası üçün ardıcıl tədbirlər görülür.

Bu tədbirlər insan fəaliyyətinin təbiətə mənfi təsirini minimuma endirməklə, sağlam mühiti və resursları gələcək nəsillər üçün saxlayıb çatdırmağı hədəfləyir. Təbii ehtiyatların qorunması ən vacib məsələlərdən biridir ki, burada su hövzələrinin, meşələrin və torpağın çirklənmədən və məhvolmadan mühafizəsindən söhbət gedir.

Çirklənmənin qarşısının alınması o zaman effektiv olur ki, hava, su və torpağa atılan zərərli tullantıların azaldılması baş versin. Təbiəti sevmək, onu qorumaq və gələcək üçün davamlı bir dünya yaratmaq üçün hər kəsin məsuliyyət daşıdığı bir prosesdir.

Bu gün bütün dünyada ətraf mühitin mühafizəsi məsələsi diqqət mərkəzindədir. Bununla bağlı layihələr icra olunur, proqramlar, tədbirlər həyata keçirilir. Azərbaycan belə tədbirlərə dəfələrlə ev sahibliyi edib. 2024-cü ildə Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) olduqca uğurlu oldu və dünya üçün mühüm əhəmiyyət daşıyan bir sıra qərarlar qəbul olundu.

2026-cı ildə Azərbaycan ekoloji sahədə növbəti bir beynəlxalq tədbirə ev sahibliyi edəcək. 5 iyun 2026-cı ildə Azərbaycanda Ümumdünya Ətraf Mühit Günü keçiriləcək. Qeyd edək ki, 2024-cü ildə BMT-nin Ətraf Mühit Proqramının (UNEP) İcraçı direktoru İnger Andersenin Bakıya rəsmi səfəri çərçivəsində UNEP və Azərbaycan Respublikası tərəfindən 2026-cı ildə ölkədə Ümumdünya Ətraf Mühit Gününün keçiriləcəyi elan edilib.

5 iyun 2026-cı il tarixində Bakıda keçiriləcək Ümumdünya Ətraf Mühit Günü ətraf mühit ilə bağlı əməkdaşlığı və məqsədyönlü fəaliyyəti ehtiva edən ən böyük qlobal platformadır.

Xatırladaq ki, "Ümumdünya Ətraf Mühit Günü" 1972-ci ildə Stokholmda keçirilən BMT konfransında təsis olunub və dünyanın ən geniş miqyaslı ətraf mühit kampaniyasıdır. İlk dəfə 1973-cü ildə qeyd olunmağa başlayan bu gün artıq 150-dən çox ölkədə milyonlarla insanı birləşdirən qlobal platformaya çevrilib. Bu platforma vasitəsilə fərdlər, hökumətlər, bizneslər və təşkilatlar ətraf mühitin qorunması istiqamətində fəaliyyətlərini geniş ictimaiyyətlə bölüşür və iqlim dəyişikliyi, biomüxtəlifliyin qorunması, hava və su ehtiyatlarının mühafizəsi kimi məsələlərə diqqəti artırırlar.

1972-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən təsis edilmiş Ümumdünya Ətraf Mühit Günü bəşəriyyət və planetimiz üçün ekoloji tərəqqinin sürətləndirilməsi naminə reallaşdırılan bütün fəaliyyət və tədbirlərdə istər əyani, istərsə də onlayn formatda iştirak edən milyonlarla insan tərəfindən qeyd olunur. 2026-cı ildə Azərbaycanın ev sahibliyi edəcəyi Ümumdünya Ətraf Mühit Günü çərçivəsində əsas diqqət iqlim dəyişmələri ilə bağlı məsələlərə yönəldiləcək.



Mətbuatda gedən fikirlərdən də aydın görsənir ki, yer kürəsinin demək olar, hər bir guşəsində olduğu kimi, iqlim dəyişmələri və ekoloji deqradasiyasının təsirləri Azərbaycandan da yan keçməyib. Ümumdünya Ətraf Mühit Günü, bütün dünyaya ümid etməyə milyonlarla səbəb təqdim edərək bu təsirlərin qarşısını almağa yönəlib. 2024-cü ildə Azərbaycan BMT-nin İqlim dəyişmələri üzrə konfransına ev sahibliyi edib, bərpa olunan enerji resurslarını artırmaq, meşə ərazilərini genişləndirmək və ən müasir texnoloji imkanlar sayəsində tullantı səviyyəsini azaltmaq əzmi ortaya qoyub və bu istiqamətdə də prosesləri gedir.

Rəsmi olaraq qeyd olunub ki, Ümumdünya Ətraf Mühit Gününə ev sahibliyi etmək yaşıl dünya naminə həmrəyliyimizə əsaslanan təbii seçimdir.

Ekspertlər deyirlər ki, son bir neçə ildir, dünya ölkələri iqlim dəyişmələri, təbiətin məhv olması və ətraf mühitin çirklənməsi və tullantılar kimi üç amilin törətdiyi planetar böhranı həll etmək naminə həmişəkindən daha sıx əməkdaşlıq edir.

BMT-nin 2022-ci ildə keçirilmiş Biomüxtəliflik Konfransı (COP15) hazırda icra olunan və 2030-cu ilə qədər ətraf mühitin deqradasiyasını dayandıraraq təbiəti bərpa etməyi nəzərdə tutan mühüm Qlobal Biomüxtəliflik Konsepsiyasının qəbulu ilə başa çatmış, dünya ölkələri açıq dənizlərdə biomüxtəlifliyi qorumaq üçün tarixi əhəmiyyət kəsb edən beynəlxalq saziş imzalamışlar.

İnger Andersen Bakı səfərində qeyd edirdi: "Dünya hökumətləri, şirkətlər, vətəndaş cəmiyyəti və insanlar qazıntı yanacaqları dövrünə son qoyulması, deqradasiyaya uğramış təbiətin bərpası, çirklənmə səviyyəsinin azaldılması və daha sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin olunması da daxil olmaqla, bəşəriyyəti dəyişiklik etməyə çağırır. Ümumdünya Ətraf Mühit Günü qlobal səyləri bir araya gətirmək üçün vahid platformadır. Ümid edirəm ki, 2026-cı ildə keçiriləcək Ümumdünya Ətraf Mühit Gününə qədər iqlim böhranı ilə bağlı irəliləyişə nail olmaq üçün Azərbaycan Respublikası ilə birgə işləyə biləcəyəm".

Qeyd edək ki, 2025-ci ildə Ümumdünya Ətraf Mühit Günü Koreya Respublikası tərəfindən keçirilib və ətraf mühitin plastik materiallarla çirkləndirilməsinə son qoymaqla bağlı məsələlərə həsr olunub. 2024-cü ildə keçirilmiş Ümumdünya Ətraf Mühit Gününə Səudiyyə Ərəbistanı Krallığı ev sahibliyi etmişdir; tədbirdə əsasən torpaqların rekultivasiyası, səhralaşma və quraqlığa davamlılıqla bağlı məsələlərə diqqət ayrılmışdır.

Azərbaycan dövlətinin ev sahibliyi edəcəyi bu qlobal tədbir ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi və plastik çirklənmə ilə mübarizə sahəsində fəaliyyətləri daha da sıx birləşəcək.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur.***